**A.R.MURADOVA**
*e-mail: moonhva94@gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

# ŞAGİRDLƏRİN PEŞƏYÖNÜMÜ İŞİNİN TƏŞKİLİ FORMALARI

***Açar sözlər:*** *pedaqoji peşəyönümü, peşəseçməyə hazırlanma, əmək tərbiyəsi, texniki peşə məktəbləri, peşə əməyi, əmək məhsuldarlığı.*

***Ключевые слова:*** *педагогическая профориентация, подготовка к выбору профессии, трудовое воспитание, профессионально-технические училища, профессиональный труд, производительность труда.*

***Key words:*** *pedagogic profession, preparation for choosing a profession, labor education, technical vocational schools, professional labor, labor productivity.*

Cəmiyyətimizdə şəxsiyyət və onun mənəvi keyfiyyətləri, təhsili, mədəniyyəti qarşısında qoyulmuş tələblər müntəzəm surətdə artır. Gənc nəslin formalaşması şəraiti isə nəinki yaxşılaşır, həm də xeyli mürəkkəbləşir. Bu mürəkkəbləşmənin əsas səbəblərindən biri də elektron və kosmos əsrində gənclərin mənəviyyatının formalaşmasına təsir göstərən, onların ideya və mənəvi düşüncələrini zənginləşdirən amillərin sayının getdikcə artmasıdır. Bu amillər həmçinin peşəyönümü prosesində də öz müsbət və mənfi təsirini göstərir.

Məktəblilərin peşəyönümü üzrə aparılan işlərin yeni aktuallıq və mürəkkəblik kəsb etməsinin bir səbəbi də suverenlik qazanmış respublikamızın beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrinin genişlənməsi, xalq təsərrüfatının bütün komponentlərinin qabaqcıl dünya dövlətlərinin qazandıqları texniki və texnoloji istehsal səviyyələri müqabilində qurmaq tələbi ilə bağlıdır. Respublikada yeni yaranmaqda olan və yaradılacaq müxtəlif sənaye sahələri, müəssisələr, qabaqcıl ölkələrin son elmi-texniki nailiyyətlər əsasında qurulacağından, məhz ona münasib, onun tələblərinə cavab verə biləcək yeni keyfiyyətli, geniş profilli kadr yetişdirməyi zəruri hesab edir. Ona görə də məktəblilərin gələcək həyata hazırlanmasında ailə və məktəbin ən yaxın köməkçisi məktəbdənkənar tərbiyə müəssisələridir.

Gənc nəsldə lazımi mənəvi və fiziki keyfiyyətlər yetişdirmək üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti kimi, məktəbdənkənar tərbiyə müəssisələrinin rolu da ildən-ilə artır. O cümlədən, böyüməkdə olan nəsillərin can sağlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və siyasi tərəqqisinin təmin edilməsində, demoqrafiya proseslərinin yaxşılaşdırılmasında ictimaiyyət olduqca mühüm rol oynayır. İnsanın xarakterinin özülü - əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Buna görə də hazırda məktəbdənkənar tərbiyə müəssisələrində ailənin, məktəbin, əmək kollektivlərinin qarşılıqlı əlaqəsini dərinləşdirmək, uşaqların tərbiyəsi üçün valideynlərin məsuliyyətini artırmaq lazımdır. XVII əsrdə yaşamış çex pedaqoqu Y.A.Komenski uşaq şəxsiyyətinin inkişafına təsir göstərən amillər barədə demokratik ruhlu daha doğru elmi fikirlər irəli sürürdü. “İrsiyyət nəzəriyyəsi”nin əksinə olaraq Komenski təsdiq etmişdir ki, uşağın psixi və mənəvi inkişafı üçün təbii imkanların (irsiyyətin), ictimai mühitin və tərbiyənin qarşılıqlı təsiri zəruridir. Komenski böyük demokratik və humanist kimi göstərmişdir ki, insanın zatından, ata-babasının kimliyindən, vəzifəli və rütbəli olub olmamasından asılı olmayaraq bütün uşaqlar tərbiyə vasitəsilə inkişaf etmək, bilikli, ağıllı, əxlaqlı və xeyirxah olmaq keyfiyyətlərinin imkanlarına malikdir. Lakin bütün insanlara xas olan belə bəşəri imkanlarla anadan doğulan bütün uşaqlar böyüklər tərəfindən lazımi şəkildə tərbiyə olunmazsa, təlim və təhsil almazsa, valideynlərdən irsən ona keçmiş həmin imkanlar inkişaf edərək insani qabiliyyətlərə heç vaxt çevrilməz, elə imkan olaraq qalar və insan heyvandan qətiyyən fərqlənməz. Bu haqda Komenski “Böyük didaktika” əsərində yazır: “Adam olmaq üçün insan təhsil almalıdır. Bilik,

əxlaqın toxumunu bizə təbiət verirsə də biliyin, xeyirxahlığın özünü vermir. Bu təlim fəaliyyəti sayəsində əldə olunur... heç bir insan təlim almadan adam ola bilməz” (3).

Qeyd etmək lazımdır ki, məktəbdənkənar tərbiyə müəssisələrinin məktəb, ailə və ictimaiyyətlə əlaqəsinin möhkəmləndirilməsi daha istedadlı uşaqların məktəbdənkənar tərbiyə müəssisələrində təşkil olunmuş dərnəklərə cəlb edilməsinə mühüm təkan verə bilər. Bu cəhətdən hüquqi demokratik cəmiyyət qurub, özəlləşdirmə, kooperasiya, xüsusi təsərrüfatçılığın özünə geniş yol açdığı, təşəbbüskarlığın, işgüzarlığın genişləndiyi indiki şəraitdə hər bir şəxsin genetik potensial imkanına uyğun formalaşmasına şərait yaratmaq tələb olunur. Keçmişdə olduğu kimi saxta sənəd-diplom xatirinə deyil, təbii imkan, fitri istedad, hüquqi maraq və ehtiyac əsas götürülməlidir. Bu baxımdan məktəbdənkənar tərbiyə müəssisələri nəzdində fəaliyyət göstərən dərnəklərdə uşaqlar gələcək həyata hazırlığın təməlini qoyur, konstruktor olmaq istəyən şagird “gənc konstruktor” dərnəyinə, texnika ilə maraqlanan “gənc texniklər” dərnəyinə və s. üzv yazılırlar və bu yolla öz istedadlarını inkişaf etdirirlər.

Uşaq şəxsiyyəti ilk növbədə ailədə və məktəbdə formalaşır. Müəllim ailədən məlumat alarkən müəyyən edir ki, burada uşağa kimlər və necə təsir edirlər. Belə təsir zamanı planlılıq, mütəşəkkillik varmı və ya hansı səhvlərə yol verilir? Uşaq yanında valideynlər və onlara təsir edən şəxslər nə dərəcədə nüfuzludurlar? Ata ilə ana uşağa tə sirdə vahid xətt tuturlarmı? Uşağın gələcək həyata hazırlanmasında, peşəyə istiqamətləndirilməsində hansı mövqeni tuturlar və s.

Məktəbdənkənar tərbiyə müəssisələri rəhbərlərinin məktəb və ictimaiyyətlə birgə işi vəhdət təşkil edərsə bu öz müsbət nəticəsini verər. Bu baxımdan aşağıdakı iş formalarından istifadə edilməsi məqsədəmüvafiq olar:

– məktəbdə və məktəbdənkənar tərbiyə müəssisələrində istedadlı uşaqların əl işlərinin sərgisini təşkil etmək;

– hətta bir şəhərdə yerləşən bir neçə məktəbdənkənar tərbiyə müəssisələrində çalışan istedadlı şagirdlərin əl işlərinin yarışını keçirmək;

– əgər mümkün olarsa kiçik tamaşalar və səhnəciklər hazırlamaq;

– respublikamızın müxtəlif şəhərlərində təşkil olunan yarışlarda iştirak etmək və s.

Bu cür maraqlı tədbirlər məktəbdənkənar tərbiyə müəssisələrinə şagird axınına səbəb olar və bekarçılıqdan bezib pis əməllərə əl atmaq istəyən şagirdlər müxtəlif maraqlı işlərlə məşğul olar ki, bu da şagirdin əməyə alışmasına, texnikaya maraq göstərməsinə səbəb olar.

Bundan əlavə, məktəbdankənar tərbiyə müəssisələrinin məktəb, ailə və ictimaiyyətlə əlaqəsinin mühüm cəhətlərindən biri də ondadır ki, bu müəssisələr məktəbdənkənar tərbiyə müəssisələrində müxtəlif tədbirlərin həyata keçirilməsinə yardım göstərir və onların köməyi ilə məktəbdənkənar tərbiyə müəssisələrinin işi sürətləndirilir. Burada aparılan işlərin keyfiyyətini artırmaq üçün oranı lazımi avadanlıqlarla, bu və ya digər sahələr üzrə ixtisaslaşdırılmış mütəxəssislərlə təmin etmək lazımdır. Buna görə də gənclərin peşəyönümü işini yalnız məktəb və məktəbdənkənar tərbiyə müəssisələrinə həvalə etmək düzgün olmazdı. Bu işdə ailə və ictimaiyyətin yaxından iştirakı vacibdir.

Apardığımız müşahidələr və əldə etdiyimiz faktlara əsasən deyə bilərik ki, məktəblərimiz-də şagirdlərin peşəyə istiqamətləndirilməsi işində həyata keçirilən tədbirlər müasir tələblər səviyyəsindən aşağıdır. Bunun başlıca səbəblərindən biri də məktəbdə aparılan peşəyönümü işlərinin məktəbdənkənar tərbiyə müəssisələrində və ailədə bu sahədə aparılan işlərlə əlaqələndirilməsidir. Bütün bunlar da bu təşkilatlar arasında əlbir işi daha dərindən təşkil etməyi, gənclərin müstəqil həyata və əməyə hazırlanmasının kökündən yax-şılaşdırılmasını, yeni müstəqil və demokratik cəmiyyətin şüurlu qurucularının tərbiyə edilməsinə daha qabiliyyətlə nail olmağı tələb edir.

Təcrübə göstərir ki, hazırda gənc peşə sahiblərinin əksəriyyəti yiyələndiyi peşəni tez-tez dəyişir, bir iş yerindən digərinə gedir və ya vəzifəsinə soyuq münasibət bəsləyir, əmək məhsuldarlığını yüksəltməyə can atmırlar. Bir çox hallarda isə hətta XI sinfi bitirmiş məzunlar da seçdikləri peşə və sənəd haqqında dəqiq fikir söyləyə bilmirlər. Onlar peşələri qohum və

tanışların, valideynlərin arzusu ilə seçirlər. Bunu pedaqoji təmayüllü universitetlərin I kurslarında oxuyan tələbələrlə "Nə üçün müəllim peşəsini seçmisən?" mövzusunda apardığımız sorğunun nəticəsindən də görmək olur. Peşənin düzgün seçilməsinin böyük ictimai və şəxsi əhəmiyyəti vardır. Qəlbə yatan peşə əməyi sevdirir, mənəvi nikbinlik yaradır, məhsuldarlığı artırır, insanı uzun müddət seçdiyi peşə sahəsində həvəslə, ilhamla işləməyə sövq edir.

Şagird bəzən peşə seçməklə müəyyən psixoloji maneələrə rast gəlir. Məsələn, orta məktəbi bitirən bəzi məzunlar ali məktəblərə qəbul imtahanlarında özlərini "sınamağı" nəzərdə tutur, texniki peşə məktəbini ehtiyatda saxlayırlar. Gənclər çox vaxt texniki peşə məktəblərinə necə deyərlər, "çarəsizlikdən" həvəs göstərirlər.

Şagirdlərin peşəyə istiqamətləndirilməsini, yuxarıda göstərildiyi kimi məktəblilərin peşə seçmək sahəsində mövcud olan bu xoşagəlməzliyin, qeyri-ciddiliyin günahını bir tək böyüklərin üstünə atmaq düzgün olmaz. Doğrudur, müəyyən dərəcədə böyüklər peşə seçməkdə öz iradələrini yeniyetmə və gənclərə qəbul endirə bilirlər. Məhz bunun nəticəsində uşaq və yeniyetmələrin təbii potensial imkanları, meyl və maraqları nəzərə alınmır. Ona görə də yeniyetmə sonralar bu peşəyə gəlməyə peşiman olur və öz peşəsindən bezir. Fikrimizcə peşəyönümü işində ən əsas çatışmamazlıqlar məktəblərdə və məktəbdənkənar tərbiyə müəssisələrində işlərin bir-birilə əlaqələndirilməməsində, peşəyönümü məqsədilə aparılan tərbiyə işlərinin informasiya xarakteri daşımasında əməli, praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılmasına çox az yer verilməsi ilə izah olunmalıdır.

## Ədəbiyyat


1. Axundov S.Q. Əmək tərbiyəsi və peşəyönümü. – Bakı, "Gənclik" nəşriyyatı, 1980.
2. Qaralov Z.İ., Hüseynov Ə.M. Bütün peşələr yaxşıdır, istədiyini seç. – Bakı, Maarif, 1979, 84 s.
3. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Azərnəşr, – Bakı-1961, 84 s.
4. Məktəblərdə peşəyönümü işinin təşkilinə dair (metodik tövsiyyələr). Tərtib edən Ə.Sarıyev. Bakı, APİ, 1987, 16 s.
5. Məcidov K.T. Məktəblilərin şüurlu olaraq peşəseçməyə hazırlanması yolları. "Azərbaycan məktəbi", 1988, № 2.
6. Платонова К.К. Цели и задачи профессиональной организации. В.кн: "Професиональная ориентация молодежи". Высшая школа, 1978.


**А.Р.Мурадова**

**Формы организации профориентации школьников**

***Резюме***

В статье определено, что неправильно возлагать всю вину за легкомыслие и несерьезность школьников в сфере выбора профессии только на взрослых. Естейственно, в определенной степени взрослые могут навязывать свою волю подросткам и молодежи в выборе профессии. И вследствие этого не учитываются природные потенциальные возможности, склонности и интересы детей и подростков. Поэтому подросток потом жалеет, что пошел в эту профессию и профессия ему надоедает. По нашему мнению, основные недостатки профориентационной работы следует объяснять несогласованностью работы в школах и внешкольных образовательных учреждениях, это следует объяснить тем, что формированию практических знаний, умений и навыков в учебной деятельности, осуществляемой с целью профессиональной ориентации, уделяется мало места.

**A.R.Muradova**

**Forms of organization of pupils' vocational work**

***Summary***

In article it is determined, that it is wrong to put the blame for the unpleasantness and frivolity of schoolchildren in the field of choosing a profession, on the adults alone. It is true that to a certain

extent, adults can impose their will on teenagers and youngers in choosing a profession. As a result of this, the natural potential opportunities, inclinations and interests of children and teenagers are not taken into account. Therefore, the teenager later regrets joining this profession and gets bored of his profession. In our opinion, the main deficiencies in the work of vocational orientation should be explained by the lack of coordination of work in schools and out-of-school educational institutions, information nature of the educational work conducted for the purpose of vocational orientation, and the fact, that little space is given to the formation of practical, practical knowledge, skills and habits.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 02.06.2022*